DOI: https://doi.org/10.59849/2957-3882.2023.2.92
UOT:8(82-96). 130.2

# III-VII ƏSRLƏRDƏ AZƏRBAYCANIN XARİCİ SİYASİ ƏLAQƏLƏRİ

**Aytac ŞİRƏLİYEVA***

**Açar sözlər:** *mənbə, Bəhram Çubin, Xosrov Pərviz, əs-Sə`əlibi, sasanilər dövrü*

## XÜLASƏ

III-VII əsrlərdə Azərbaycan Ön Asiyanın Qafqazda maraqları olan üç imperiyanın (Bizans, Sasani və Xəzər xaqanlığı) hərbi-siyasi çəkişmələrinin mərkəzinə çevrilmişdi. Həmin dövlətlər bu bölgə uğrunda uzunmüddətli mübarizədə olmuşlar. Onlar bu bölgəyə sahib olmağa, onu nəzarətdə saxlamağa, Cənubi Qafqazın hərbi-siyasi və iqtisadi, ticarət potensialından siyasi və strateji maraqları üçün istifadə etməyə can atırdılar. Buna görə də həmin dövlətlərin qarşılıqlı əlaqələri daha çox hərbi-siyasi səciyyə daşıyırdı. Həmin münasibətlərdə, əlaqələrdə iqtisadi, ticari və mədəni səciyyəli əlaqə faktları tapmaq çox çətindir.

Atropatenanın işğalı, Albaniyanın vassal asılılığına düşməsi ölkəni birbaşa xarici siyasi əlaqələrdən məhrum etmişdi. III-VII əsrlərdə Azərbaycanın xarici siyasi əlaqələri Sasani dövlətinin qonşu dövlətlərlə münasibətləri daxilində mövcud olmuşdur.

Sasanilər tarixinin VI əsri əsasən Cənubi Azərbaycanın ərazisində baş vermiş hadisələrlə zəngindir. Bu dövrdə Sasani imperiyası müxtəlif qonşuları ilə hərbi-siyasi qarşıdurma vəziyyətində idi: Bizans imperiyası, tədricən güclənən türk dövlətləri, cənub istiqamətindən fəallaşan ərəblər Sasani imperiyası üçün böyük təhlükəyə çevrilmişdi.

589-cu ildə türk xaqanı Şabenin ordusu mərzban və Sasani sərkərdəsi, Mehranilər nəslindən olan Bəhram tərəfindən darmadağın edildikdən sonra Ktesifonda sülh müqaviləsi imzalandı. Bundan sonrakı hadisələr Sasanilərin şimal mərzbanlığının mərkəzi olan Atropatena ərazisində baş verirdi. Şabe xaqana qalib gəlmiş Bəhramın güclənməsindən qorxan IV Hörmüz onu mərzbanlıqdan uzaqlaşdırdı. Bəhram buna etiraz edərək üsyan qaldırdı və özünü “Bəhram Çubin” adı ilə şahənşah elan etdi. Eyni zamanda Reydə şahzadə Xosrov Pərvizin adına sikkələr kəsilməyə başlandı. Xosrov Pərviz atasının qəzəbindən qorxaraq Atropatenaya qaçdı. Lakin tezliklə IV Hörmüz taxtdan salındı, onun oğlu Azərbaycan mərzbanının və digər mərzbanların müşayiəti ilə Ktesifona qayıtdı və “II Xosrov” (591-628) adı ilə Sasani taxtına sahib oldu. Diqqətdən kənarda qalmış Bəhram Çubin “IV Hörmüzün qisasını almaq” bəhanəsi ilə Reydən dövlətin paytaxtı Ktesifona gəldi. II Xosrov Bizansa qaçdı, Bəhram Çubin isə taxta azyaşlı şahzadə Şəhriyarı çıxardı. Bu hadisələr və Bəhram Çubin haqqında məlumatlar öz əksini Əbu Mənsur əs-Sə`əlibinin əsərində ətraflı şəkildə tapmışdır.

Azərbaycanın və “Ərminiyyə”nin, sonralar isə Reyin və Xorasanın mərzbanı olmuş Sasani sərkərdəsi Bəhram Çubin haqqında bir çox ərəb mənbələrində maraqlı məlumatlar vardır. Ərəb tarixçisi İbn Hovqəl Bəhram Çubin haqqında yazmışdır ki, o, Əcəm (qeyri-ərəb) xalqlarından çıxmışdı, öz qəhrəmanlığı ilə seçilirdi, Mazandaranda anadan olmuşdu.

Qeyri-ərəb mənbələrində Bəhram Çubin adətən “VI Bahram” və yaxud “Varahran” şəklində təqdim edilir. Bəhram Çubin şahənşah IV Hörmüzun həm qaynı, həm də məşhur sərkərdəsi olmuşdur. O, Parfiya əsilli Mehranilər nəslindən idi və Sasanilər imperiyasının şərq vilayətlərini idarə edirdi.

* *Tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti.*
*E-mail: aytajshiraliyeva@gmail.com*

Vaxtilə eftallarla (heytallarla) uğurlu müharibələr aparmış Bəhram Çubin onları darmadağın etmiş, onların ölkəsini qəsb etmişdi. O, Amu-Dərya çayının əks sahilində yaşayan maskutlara qarşı uğurlu döyüşlər aparmış və onlara qalib gəlmişdi. Bəhram Çubin Sasani taxtında təqribən 2 il olmuşdur. Vaxtilə ölkədən qaçmış Xosrov Pərviz Bizans imperatorunun hərbi yardımı sayəsində yenidən hakimiyyətə qayıtdı. Bəhram Çubin isə öncə Bəlxə, sonra isə türk xaqanının yanına qaçdı və orada vəfat etdi (5, s.171-173).

588-ci ildə türk əsilli Eftallar Sasanilərə qarşı yeni müharibəyə başladılar. İranşəhrin vəziyyəti ağır idi. Onlarla mübarizə aparmaq üçün Azərbaycandan gəlmiş Bəhram Çubin Sasani qoşununa sərkərdə təyin olunmuşdu. Əbu Mənsur əs-Sə`əlibi bu barədə yazmışdır: "Hörmüz öz dövlətinin ali insanları ilə məsləhətləşdi, onlardan xahiş etdi: ona orduya rəhbərlik edə biləcək yararlı adam göstərsinlər ki, bu sərkərdə türklərə qarşı qəhrəmanlıqla döyüşsün. Əksəriyyət Bəhram Çubinin namizədliyi üzərində dayandı. Bəhram Çubin Azərbaycandan gəlmiş məşhur sərkərdə, həm də əla süvari idi. İgidlik və qoçaqlıq, sərkərdəlik istedadı və siyasi vərdişlər onun səciyyəvi xüsusiyyətləri idi" (6, s.642-643).

Əbu Mənsur daha sonra yazmışdır: "Bəhramın qətiyyəti, qərar qəbul etməsi Hörmüzün gözündən yayınmadı, onda güclü sərkərdəlik qabiliyyətinin olduğunu gördü. Onunla məsələni müzakirə etdilər və Bəhramdan eşitdikləri şahənşahı çox razı saldı. O, türklərə qarşı müharibənin rəhbərliyini Bəhrama tapşırdı" (6, s.643-644).

Bəzi mənbələrdə qeyd olunur ki, bir cadugər şahənşah IV Hörmüzə dedi ki, "Bəhramdan qalibiyyətlə yanaşı xəyanət də gözləmək olar". Əbu Mənsur əs-Sə`əlibi də qeyd edir ki, "Hörmüzə xidmət edən bir cadugər vardı. Hörmüz onu çağırtdırıb Bəhram Çubinin gələcək taleyini təyin etməyi tapşırdı. Cadugər Hörmüzə söylədi: "O, düşmənə qalib gələcək, lakin ağasının üzünə ağ olacaq". Hörmüz dedi: "Nə olacaqsa qəbulumdur, hər şey Tanrının əlindədir" (6, s.644).

Bəhram Çubin türklər üzərində böyük zəfər qazandıqda və böyük qənimətlə İranşəhrə qayıtdıqda IV Hörmüz onu "qəhrəman və İranşəhrin xilaskarı" kimi qarşıladı, ona tac və şöhrət xələti verdi. Lakin bütün bunlarla yanaşı, şahənşah ehtiyatı da əldən verməmişdi. IV Hörmüz kahinlərdən birini Bəhramın yanında yerləşdirmişdi ki, sərkərdənin hər bir addımı barədə ona məlumat versin (6, s.648-657).

590-cı ildə Bəhram IV Hörmüzə qarşı qiyam qaldırdı və özünü "Şahənşah" elan etdi. Əbu Mənsur əs-Sə`əlibi öz əsərində Bəhram Çubinin IV Hörmüzə qarşı qiyamının səbəbləri barədə ətraflı məlumat vermişdir. Əsərdə qeyd olunur ki, Bəhram türklər üzərində qələbə qazandıqdan sonra onun dövlət aparatında güclənmiş mövqeyi rəqiblərini narahat etməyə başladı. Rəqiblər IV Hörmüzü və Bəhramı toqquşdurmaq üçün Bəhramı "xəyanətdə" ittiham etdilər. Onlar türklər üzərində qələbədən sonra Bəhramın "hərbi qənimətin bir hissəsini mənimsədiyini" söylədilər. Bu, IV Hörmüzü çox əsəbiləşdirdi və o, Bəhrama öz etirazını bildirdi. IV Hörmüz Bəhramı nəinki ordu rəhbərliyindən uzaqlaşdırdı, hətta ona təhqiramiz məktub və qadın libası, sırğa, ətir və pambıq göndərdi. Bəhram aldığı bu "hədiyyələrdən" dəhşətə gəldi və şahənşaha qarşı qiyam qaldırdı. Azsaylı ordu Hörmüzün idarə üsulundan narazı olduğu üçün Bəhramı dəstəklədi. Bəhram Çubin türk xaqanının oğlu Bermudayla ittifaq qurdu, birləşmiş ordu ilə Xorasana tərəf hərəkət etdi və orada öz bayrağını qaldırdı. Bəhram Çubin IV Hörmüzə məktub göndərərək onun hakimiyyətdən getməsini tələb etdi. Şahənşah həmin məktubu alanda öz səhvini başa düşdü, lakin artıq gec idi (6, s.657-659).

Əbu Mənsur əs-Sə`əlibi onu da qeyd edir ki, Bəhram Hörmüzlə şahzadə Xosrov Pərvizi bir-birinə düşmən etmək qərarına gəldi. Bu məqsədlə o, Xosrov Pərvizin adına qızıl sikkələr kəsdirərək onu bütün İranşəhrdə məşhurlaşdırdı. Bəhram Hörmüzə daha bir məktub yazdı, ona "geri çəkilməyi və hakimiyyəti Pərvizə verməyi" məsləhət gördü (6, s.659).

Əbu Mənsur əs-Sə`əlibinin əsərində qeyd olunur ki, Hörmüz bu məktubu oxuyan kimi təlaşa düşdü. IV Hörmüzün "Adhia Küşasp" adlı köməkçisi ona "Xosrov Pərvizi öldürməyi və Bəhramla dil tapmağı" məsləhət gördü. Lakin IV Hörmüzün bir qulu bu söhbəti eşitdi, eşitdiklərini Pərvizə danışdı və onu "yaxınlaşmaqda olan bəladan" xəbərdar etdi. Xosrov Pərviz gecə ikən yola çıxdı və

Azərbaycana getdi. Bu əyalətin valisi onun qayğısına qaldı, onu müdafiə etməyi öz öhdəsinə götürdü (6, s.659).

Əbu Mənsur əs-Sə`əlibi öz əsərində Xosrov Pərvizin tez-tez Azərbaycana gəldiyi barədə məlumat vermişdir. O, qeyd etmişdir ki, "Azərbaycan valisi, ordu, yuxarı təbəqə və əhali onu çox sevirdi. O, öz ordusunu burada saxlayırdı. Vali isə öz növbəsində onu döyüşlərdə müşayiət edirdi" (6, s.660-661).

Pərvizin qaçdığını Sasani hökmdarı IV Hörmüzə xəbər verdikdə o, çox narahat oldu və onun iki əmisini (Binduyanı və Bistamı) həbs etdirdi. Tezliklə Bəhramın hərbi yürüş xəbəri gəldi. Bəhram Çubin Reydə qiyam bayrağı qaldırıb Şahənşaha müharibə elan etdi. Sarayda bu xəbər böyük həyəcana səbəb oldu. Əhali çaşqınlıq içində idi və hər yerdə dağıntı, böhran hökm sürürdü. Bəhramın əsgərləri həbsxanaya hücum edərək Binduyanı və Bistamı azad etdilər. Onlar qiyamçıları Hörmüzü "devirməyə" çağırdılar və buna nail oldular. Bir dəstə insan Hörmüzün sarayına daxil olub onu torpağın üstündə sürüdü. Bundan sonra isə onun gözlərini yandırdılar. Xəbər Xosrov Pərvizə çatan kimi o, təcili olaraq Mədainə (Ktesifona) qayıtdı. Pərvizi Azərbaycanın və digər əyalətlərin valiləri müşayiət edirdilər (6, s.661).

Xosrov Pərviz Azərbaycandan qayıdandan sonra üç gün öz iqamətgahında qaldı. Bundan sonra isə o, taxtda əyləşdi, tacını başına qoyub insanları qəbul etməyə başladı. Pərviz qısa nitq söylədi və təbəələrinə vəd verdi ki, onlarla babası Ənuşirəvan kimi davranacaq. Təbəələr onun qarşısında baş əydilər, xoş sözlər söylədilər.

Əbu Mənsur əs-Sə`əlibi qeyd edir ki, bu hadisədən sonra Xosrov Pərviz atası Hörmüzü görməyə getdi, ona yazığı gəldi, qarşısında ağladı. Hörmüz ona dedi: "Oğlum, səndən üç xahişim var: birincisi, bir oğul kimi mənə ehtiram göstər və hər gün mənə baş çək. İkincisi, mənə bir nağılçı, həyan təyin et ki, həmişə mənimlə olsun, əzablarımı mənə unutdursun, məni əyləndirsin. Üçüncüsü, məni bu hala salanlardan qisasımı al". Xosrov Pərviz atasına dedi: "Birinci və ikinci xahişini yerinə yetirirəm. Üçüncü xahişinə gəldikdə isə, Allah Bəhram bəlasını başımızdan uzaqlaşdırana qədər mən səndən möhlət istəyirəm" (6, s.662).

Əbu Mənsur əs-Sə`əlibi qeyd edir ki, bir həftə keçmədi ki, Xosrov Pərviz Bəhramın hakimiyyətə sahib olmaq iddiasında olduğunu öyrəndi. O, təmtəraqlı görkəmdə, cah-cəlal içində, Binduya sağında, Bistam isə solunda, mərzbanların müşayiəti ilə, başının üstündə Kəyan bayrağı Bəhramla görüşə yollandı (6, s.663).

Xosrov Pərviz Narvana çataraq çayın kənarında dayandı. Bəhram ona tərəf hərəkət edərək çayın digər tərəfində qərar tutdu. Xosrov Pərviz onun gördüyü döyüşçülərdən hansının Bəhram olduğunu soruşdu, ona ağ atın üstündə olan döyüşçünü göstərdilər. O, bir az da irəlilədi, Bəhram da ona yaxınlaşdı. Xosrov Pərviz Bəhramı salamladı, ona tariflər söylədi, onu İranşəhrin "sipahbadı" adlandırmaqdan da çəkinmədi və öz imperiyasının bütün işlərini ona tapşırmaq niyyətində olduğunu bildirdi. Bəhram isə öz növbəsində onu "düşməninin oğlu" adlandırdı. "Xosrov Pərvizin Bəhramla mülayim davranışı, nəzakəti və ağıllı tədbirləri heç bir nəticə vermədi. Bəhram ona qarşı daha kobud və daha nifrətli oldu" (6, s.663).

Bizim mənbədə Bəhram Çubin və Xosrov Pərviz arasında olan qarşıdurma da geniş şəkildə təsvir edilmişdir: "Ertəsi gün Bəhram öz ordusu ilə Xosrov Pərvizin düşərgəsinə tərəf irəlilədi. O, günün bir hissəsini onunla döyüşdükdən sonra Xosrov Pərviz qaçmağa üz tutdu. Bəhram onu təqib etdi və çıxışı olmayan dağda gizlənməyə vadar etdi. Xosrov Pərviz həmin yerdə bir gün, bir gecə qaldı, sonra isə görkəmini dəyişərək şəhərə girdi. O, Rum (Bizans – A.Ş.) hökmdarı Morisdən (Mavrikidən-A.Ş.) hərbi kömək istəmək üçün onun yanına getməyə hazırlaşdı" (6, s.665).

Əbu Mənsur əs-Sə`əlibi göstərir ki, Xosrov Pərviz sərkərdələri və yaxınları ilə yola düşdü. Onların arasında əmiləri Binduya və Bistam da vardı. O, hələ şəhərdən uzaqlaşmamışdı ki, hər iki əmisinin tərəddüd etdiyini gördü. Xosrov Pərviz onlardan bu tərəddüdün səbəbini soruşanda onlar cavab verdilər ki, Bəhramın gəlib Hörmüzün hakimiyyətini bərpa edəcəyindən, taxta çıxacağından qorxurlar, bu isə onların sonu ola bilər. Onlar Xosrov Pərvizdən Hörmüzü məhv etməyə icazə istədilər. Xosrov Pərviz buna etiraz etmədi. Binduya və Bistam bir neçə nökərin müşayiəti ilə geri

qayıdaraq Hörmüzün yanına girdi və Hörmüz boğularaq öldürüldü. Xosrov Pərviz və silahdaşları Fərat çayını keçdilər, bir xristian monastırında dincəlmək üçün dayandılar. Bu zaman keşikçi onlara Bəhramın bir dəstə süvari ilə onları izlədiyini xəbər verdi. Binduya Xosrov Pərvizə dedi: "Gəl paltarlarımızı, zirehlərimizi dəyişək, sən yoluna davam et, mən isə bir neçə adamla burada qalıb onları azdırım". Bəhramın adamları yaxınlaşanda Xosrov Pərviz kiçik dəstəsi ilə monastırdan çıxdı və məcburi səyahətini davam etdirdi (6, s.665-666).

Əs-Sə`alibinin əsərində qeyd olunur ki, Binduya Xosrov Pərvizin paltarını və zirehini geyinərək atlandı və Bəhramın əsgərlərinə müraciət edərək onlardan xahiş etdi ki, günün qalan hissəsini, bu gecəni sübhədək ona dincəlməyə möhlət versinlər. Bundan sonra o, könüllü olaraq təslim olacağını bildirdi. Əsgərlər onun xahişini nəzərə aldılar və monastırın bütün ərazisini qorudular. Səhər Binduya göstəriş verdi ki, monastırın qapısını açsınlar. Əsgərlər içəri girərkən Xosrov Pərvizi deyil, Binduyanı gördülər, hiylə ilə üzləşdiklərindən çox məyus və peşman oldular. Onlar Binduyanı həbs edərək Bəhramın yanına apardılar. Bəhram onun hərəkətindən çox əsəbiləşdi və əmr etdi ki, onu zəncirləsinlər və zindana atsınlar (6, s.667-668).

Xosrov Pərviz Rum (Bizans – A.Ş.) şahı Morisin (Mavrikinin – A.Ş.) yanına gəlib çatdı. Moris onu çox mehribanlıqla qəbul etdi, onunla hörmətlə davrandı, öz qızını ona ərə verdi. Morisin qızının adı "Mari" ("Mariya" – A.Ş.) idi. O, çox gözəl idi. Moris Xosrov Pərvizə sərkərdəsi Sergiusun rəhbərliyi altında olan 50 minlik ordu verdi, onu qızı ilə birlikdə yola saldı (6, s.668).

Əbu Mənsur əs-Sə`alibinin məlumatlarından aydın olur ki, Xosrov Pərviz və Bəhram arasında döyüş Azərbaycan ərazisində baş vermişdir: "Xosrov Pərviz yürüşə başladı və ordunu Azərbaycana gətirdi. Binduya əsirlikdən azad edildi, mərzbanlar və əyanlar onu görməyə gəldilər. Farsdan və Xorasandan gələn insanlar ona qoşulmuşdular (6, s.668).

Bu zaman Bəhram Çubin Mədaində (Ktesifonda – A.Ş.) hakimiyyəti ələ keçirmişdi. O, Xosrov Pərvizin Azərbaycana yaxınlaşdığını eşidən kimi, ondan əvvəl hücuma keçməyə qərar verdi. Bəhram Çubin Azərbaycan istiqamətində yürüşə başladı. Rəqiblər arasında şiddətli döyüş baş verdi və xeyli yunan (Bizans – A.Ş.) əsgəri öldü. Xosrov Pərviz Bəhram Çubinlə təkbətək döyüşməli oldu. Bəhram nizəsini Xosrova tuşlayarkən o, nizəni onun əlindən aldı, lakin ucluğu qaytarıb Bəhrama tərəf ata bilmədi. Bu zaman Bəhram onun başına güclü bir zərbə endirdi. Bu zərbədən nizə sındı. Sonra isə Bəhram Çubin döyüş meydanını tərk etdi. Həmin döyüşdən sonra Xosrov Pərviz mərzbanları və əyanları ilə Mədainə qayıtdı. O, Binduyanı və Bistamı "atasının qatilləri" kimi günahlandırıb onlar haqqında qərar çıxardı və dedi: "Doğrusu sizi öldürmək qərarından böyük əzab çəkirəm. Siz sevimli qohumlarımsınız, bütün həyatlarını mənə həsr etmiş insanlarsınız. Siz təşəkkürümə, minnətdarlığıma layiqsiniz. Lakin istənilən şah onun atasını öldürmüş şəxsləri öldürməyə borcludur. "Xosrov Pərviz göz yaşlarını sel kimi axıdaraq əmr etdi ki, əmilərini boğub öldürsünlər. Bundan sonra Xosrov Pərviz dövlət işlərini qaydaya salmaqla məşğul oldu, sərhədləri möhkəmləndirdi (6, s.669-670).

Əbu Mənsur əs-Sə`alibinin təsvir etdiyi bu hadisələrə Moisey Kalankaytuklunun "Alban tarixi" əsərində də təsadüf olunur: "Etibarlı və gerçək tarixçilərdən öyrəndik ki, İran (Sasani – A.Ş.) şahının (şahənşahının – A.Ş.) qohumlarından olan Bindoy və Bistam qardaşları Xosrovun atası Hörmüzün əleyhinə qiyam edib onu öldürdülər və sonra qohumlarından biri ilə öz qardaşı oğulları Xosrovla birlikdə Bəhram Çubinin əlindən qaçıb Bizansa, imperator Mavrikinin yanına gəldilər. Mavriki Xosrovu özünə kürəkən edərək onu geriyə göndərdi və o, vətəninə gələrək öz şahlığını ələ aldı. Bir çox illər keçdikdən sonra Xosrov iki əmisini (Bindoyu və Bistamı) və onların nəslindən altmış nəfərə qədər adamı öldürüb atasının qisasını aldı" (3, s.100-101).

Əbu Mənsur əs-Sə`alibi Xosrov Pərviz və Bəhram arasında baş vermiş hadisələrin davamını bu cür təsvir etmişdir: "Bəhram qaçdıqdan sonra onun sərkərdələrinin çoxu Xosrov Pərvizin tərəfinə keçdi. Yalnız kiçik bir dəstə Bəhram Çubinə sadiq qaldı. Lakin bu döyüşçülər güclərini cəsarət və keyfiyyət baxımından əhəmiyyətli dərəcədə nümayiş etdirə bilirdilər. Xosrov Pərviz Bəhramın dəstəsinə qarşı böyük hərbi dəstələr göndərmişdi ki, onu mümkün qədər sıxışdırsınlar və Bəhrama hücum etsinlər. Lakin Xosrov Pərvizin əsgərlərinin ona hücum etməyə cəsarətləri çatmadı və onlar təqibi yaddan çıxararaq geri oradan qayıtdılar" (6, s.672).

Bu zaman Bəhram Çubin Nişapura doğru hərəkət etdi. O, özünə sadiq qalan adamların azlığını, əhalinin ona iltifatının azaldığını görüb onu təqib edən Xosrov Pərvizin əlindən xilas ola bilməyəcəyini düşünərək Mavəraənnəhrə getdi, Barmuzanın oğlu Xaqandan sığınacaq istədi. Xaqanın əyanları və ordu başçıları onu qarşıladılar. Xaqan ona xeyli ərzaq və qiymətli hədiyyələr verdi (6, s.672-674).

Bəhram Çubinin varlığından ehtiyat edən Xosrov Pərviz türk Xaqanına məktub göndərdi və ondan Bəhramı qolları bağlı halda təslim olunmasını istədi (6, s.675). Xaqan isə ona göndərdiyi cavab məktubunda yazmışdı: "Bəhram məndən kömək və qayğı, yanımda sığınacaq istədi. Mən onu qəbul etdim, onu müdafiə etdim, ona təhlükəsizlik təminatı verdim. Ruhum bədənimdə olduqca onu sənə verməyəcəyəm" (6, s.676).

Xosrov Pərviz Bəhram Çubini bu cür ələ keçirə bilmədiyini anlayıb hiylə işlətməyə qərar verdi. O, Xaqanın sarayına Hörmüz Curabzin adlı bir mahir şəxsi elçi göndərdi, onu təlimatlandıraraq çoxlu pul verdi, ona Bəhramı Xaqanın gözündən salmağı əmr etdi (6, s.676).

Lakin tezliklə Hörmüz Curabzin anladı ki, quru sözlərlə Xaqana təsir edə bilməyəcək. Bəhram isə xaqanı İranşəhrə sahib olmaq arzusuna şirnikləndirə bilmişdi. O, Xaqanı bu ölkəni Xosrov Pərvizdən qoparacağına və orada Xaqanın hökmranlığını bərqərar edəcəyinə inandırmışdı. Xaqan onun sözlərinə inanmış, ona Xosrov Pərvizlə döyüşmək üçün döyüşçülər və maddi yardım da vermişdi. O, Bəhrama Ceyhun çayının (Amu-Dərya – A.Ş.) sahillərində düşərgə salmağı və lazım olan məqamadək orada qalmağı əmr etmişdi (6, s.677-678).

Hörmüz Curabzin anladı ki, Xaqan öz mövqeyindən əl çəkən deyil və Bəhram Çubinə dost münasibətini qoruyub saxlamaq qərarındadır. Buna görə də o, Bəhramı məhv etmək üçün başqa bir əmələ əl atdı. O, sarayda qoluzorlu, qan tökməkdən çəkinməyən türk xidmətçilərindən biri ilə razılığa gəldi, ona xeyli pul verib qəflətən Bəhram Çubinin yanına girməyi, xəncərlə onu öldürməyi tapşırdı (6, s.678-682).

Əbu Mənsur əs-Sə`alibinin əsərində Sasani şahənşahları və Bəhram Çubin arasında baş vermiş münaqişələrin təsviri Əbu Cəfər Mühəmməd ibn Cərir ət-Təbərinin "Tarix ər-rüsul va-l-müluk" əsərindəki təsvirlə eyniyyət təşkil edir. Ət-Təbəri qeyd olunan hadisələri bu cür təsvir etmişdir: "Sonra Kisra Əbərviz (Pərviz – A.Ş.) ibn Hörmüz ibn Kisra Ənuşirəvan şahlıq (şahənşahlıq – A.Ş.) etdi. O, İran (Sasani – A.Ş.) şahlarının ən qüdrətlisi, ən bəsirətlisi və ən uzaqgörəni idi. O, heç bir padşahın təsəvvürə belə gətirə bilmədiyi qüdrətə və hünərə, qələbəyə və zəfərə, var-dövlətə və sərvətə, xoş taleyə və bəxtə malik idi. Buna görə də o, "Əbərviz" adlandırılmışdı ki, bu, ərəbcə "müzəffər" deməkdir. Rəvayət olunur ki, Əbərviz atası Hörmüzdən kənarlaşaraq xəlvəti olaraq Azərbaycana getdikdə bu işdə Bəhram Çubinin müəyyən hiylə işlətdiyini başa düşən Hörmüz anlamışdı ki, Bəhram onun yerində şahlıq etmək fikrindədir. Bəhram öz niyyətini yalnız sonra aşkar etdi. Belə ki, nahiyədən keçərkən oradakı isbahbəzlərdən və digər əyanlardan ibarət olan bir dəstə onun (Bəhramın – A.Ş.) başına toplaşdı. Onlar Bəhrama kömək edəcəklərinə and içdilər. Hörmüz isə bununla əlaqədar olaraq bir iş görmədi. Deyirlər ki, Bəhram Çubinlə döyüşə göndərilmiş Azincuşnas öldürüldükdə onun ordusu pərən-pərən olub əl-Mədainə (Ktesifona – A.Ş.) üz qoymuşdu. Çubin isə onları təqib etmişdi, Hörmüzün vəziyyəti pisləşmişdi. Azincuşnasın Əbərvizlə həmyaşıd olan bacısı Azincuşnasın aqibəti ilə əlaqədar olaraq Əbərvizə məktub yazıb Hörmüzün zəiflədiyini və əyanların onu devirmək fikrinə gəldiklərini xəbər vermiş və bildirmişdi ki, əgər Çubin onu qabaqlayıb əvvəl gələrsə, o, əl-Mədaini ələ keçirəcək. Məktub Əbərvizə gəlib çatdıqda o, Ərminiyyədən və Azərbaycandan döyüşçü toplayıb əl-Mədainə yollanmışdı. Əbərvizin gəlişinə sevinmiş əyanlar və kübarlar onun başına toplaşmış və Əbərvizin başına tac qoymuşdular. O, taxta çıxaraq demişdi: "İtaət göstərmək bizim dinimizdən, xeyir işlər görmək isə müdrikliyimizdəndir. Babamız Kisra ibn Qubad sizin atanız idi. Atamız Hörmüz də sizin üçün ədalətli hökmdardır. Ona görə də siz boyun əyib itaət etməlisiniz!" Üçüncü gün o, atasının yanına gəlmiş və onun qarşısında diz çökərək demişdi: "Şah sağ olsun! Sənə bəlli olsun ki, fitnəkarların sənə qarşı etdiklərində mənim təqsirim yoxdur. Sənin məni öldürə biləcəyindən qorxaraq qaçıb Azərbaycanda gizlənmişdim". Hörmüz ona inanıb demişdi: "Oğlum, səndən ikicə xahişim var, mənə kömək ol: Məni taxtdan salıb yıxmaqda, gözlərimi ovub

çıxarmaqda əlbir olanlardan qisasımı al, onlara rəhmin gəlməsin! Hər gün sağlam düşüncəli üç nəfərin yanıma gəlməsinə icazə verməklə məni şad edib sevindir". Əbərviz (Pərviz) ona razılıq verərək demişdi: "Şah sağ olsun! Dönük Bəhram hərbi köməklə və cəsur döyüşçülərlə artıq bizi haqlamışdır. Biz daha gözləyə bilmərik... Əgər Allah bu yaramaza (Bəhrama – A.Ş.) qarşı mübarizədə mənə yar olarsa, sənin xələfin kimi itaətində duraram" (4, s.109-111).

Beləliklə, Sasani hökmdarı II Xosrov Pərvizin istəyi həyata keçdi. O, daha bir düşmənindən yaxa qurtardı. Bəhram Çubinin çox az bir müddətdə hökmranlıq etdiyinə baxmayaraq, onun şöhrəti bütün İranşəhrə, qonşu dövlətlərə yayıldı. Mənbədə qeyd olunur ki, Bəhram Çubin bu qısa müddət ərzində bir neçə şəhər saldırmışdı: Bab əl-Əbvab (Dərbənd) şəhərindən şimalda – Xəzər düzündə yerləşən, "Saray Batu" adı ilə tanınan "Sərir əz-zəhəb" ("Qızıl taxt") şəhərini, türklər diyarında Saravast şəhərini, Bərdə şəhərini və XII əsrdə çiçəklənən mərkəzə çevrilmiş Naxçıvan şəhərini (6, s.683).

Bizans-Sasani müharibəsinin son mərhələsi (603-629), bu mərhələdə Bizans imperiyasının hərbi uğurları, Sasani hökmdarı II Xosrov Pərvizin (590-628) öldürülməsi, bundan sonra şahənşahlıq sarayında baş vermiş çəkişmələr Azərbaycanın şimal hissəsində Sasanilərdən asılı olan Albaniyanın siyasi müstəqilliyinin artmasına şərait yaratmış amillərdən idi.

Əbu Mənsur əs-Sə`əlibi bu dövrdə baş vermiş hadisələri, xüsusilə Xosrov Pərvizin öldürülməsini və Şiruyənin hakimiyyətə gəlişini ətraflı təsvir və şərh etmişdir: "O (Şiruyə – A.Ş.), Əbərvizin (Xosrov Pərvizin) Bizans imperatorunun qızı Mariyadan olan oğlu idi. Atası ona "Qubad" adını vermişdi, lakin onu "Şiruyə" deyə çağırırdılar. Münəccimlər Xosrov Pərvizin əmri ilə uşağın bürcünü öyrənmiş və valideynlər onlardan bədbəxt hadisələrin olacağını, dövlətdə gözlənilmədən baş verəcək fəlakətlərin taxt-tac çəkişməsinə səbəb olacağı xəbərini almışdılar. Əbərviz bu qorxunc xəbəri sirr kimi saxladı, Şiruyəni öldürmək qərarına gəldi, lakin sonra bu fikrindən daşındı, onu taleyin, Allahın hökmü kimi qəbul etdi. Bir dəfə kahin yeniyetmə Şiruyənin bir əlində qurd pəncəsi, digər əlində isə cüyür buynuzu tutduğunu gördü. O, əlindəkiləri bir-birinə çırparaq "Kəlilə və Dimnə" kitabından şir və öküzün hekayəsini danışırdı. Kahin bunu pis əlamət sandı və oradan uzaqlaşdı, bu barədə Əbərvizə məlumat verdi. Şahənşah baxıcıların bu barədə verdiyi xəbərləri, onların ehtiyatlı və tədbirli olmaq haqqında məsləhətlərini xatırladı, narahatlığı daha da artdı. Bu hadisədən sonra Şiruyənin narahatlıq doğuran müxtəlif hərəkətləri onu daha da qorxutdu. Nəticədə o, Şiruyəni ən yaxşı saraylardan birinə göndərməyi, onun bütün ehtiyaclarını ödəməyi əmr etdi. Əbərviz inandığı zabitlərdən bir neçəsini də ona gözətçi təyin etdi (6, s.712-713).

Əbu Mənsur əs-Sə`əlibi əsərində qeyd olunan rəvayət səciyyəli bu məlumatlar ətraflı şəkildə təsvir olunmşdur. Bu mənbədə Şiruyənin taxta çıxması da ətraflı təsvir olunmuşdur: "Əbərviz yaşa dolduqca var-dövlətə hərisliyi daha da gücləndi. O, xeyli var-dövlət topladı, xəzinəsi sayagəlməz dərəcədə doldu və bu vərdiş onun daimi adətinə çevrildi. Onun digər vərdişləri isə qan tökmək, yüksək mənsəb sahiblərini qorxutmaq, xidmətçilərdən, rəislərdən narazı qalmaq və s. idi. Bu şəxslərin taleyi təhlükədə idi. Onlar şahənşahın kobudluğundan, özündən çıxmasından qorxaraq, bu hakimiyyətindən cana doyaraq onu devirmək və hakimiyyətə oğlu Şiruyəni gətirmək qərarına gəldilər. Onlar Şiruyənin saxlanıldığı saraya gəldilər, gözətçilərin qaçmalarından istifadə edərək içəri girdilər... Qiyamçılardan biri ona dedi: "Sevin, biz səni atanın yerinə şahənşah elan edəcəyik. Razı olsan, lap yaxşı, əks halda isə səni öldürəcəyik". Şiruyə susdu, onu təntənə ilə Fərruxzadın evinə gətirdilər (6, s.714).

Gecə öz qanadlarını sarayın üstünə salanda, Əbərviz qayğısız və tam təhlükəsiz Şirinin yanında yatmışdı. Hər səhər "Əbərviz! Şahlar şahı!" deyə qışqıran carçılar, bu səhər "Qubad! Şahlar şahı!" deyərək car çəkdilər. Beləliklə, Şiruyə şahənşah elan olundu". Əbərviz oyandı və həmin səsi eşitdi, bu səsin onun sonluğundan xəbər verdiyini anladı. O, dəhşətə gəldi və cəsarətsizliyin qurbanı oldu. Sonra təəccüb içində istehza ilə gülümsünərək Şirinə dedi: "Mən bu lənətə gəlmişin (Şiruyənin – A.Ş.) əsil adını (Qubad – A.Ş.) eşidəndə çox təəccüblənirəm. Axı o, indiyədək adını bilmirdi. Biz onun qulağına yalnız anadan olanda "Sənə Qubad adını veririk" demişdik, lakin həmişə Şiruyə

çağırmışıq. Gizli saxlanılan bu adı insanlara kim deyib axı?" Şirin dedi: "Hadisələr öz axarını tapır. Pis nəticələri Allah özü yoluna qoyacaq. Sabahadək özünü xilas etməyə çalış" (6, s.715).

Əs-Sə`əlibi Şiruyənin taxta çıxmasını da rəvayət şəklində təsvir etmişdir: "Günəşin ilk şəfəqləri görünən kimi şəhəri səs-küy bürüdü. Adamlar ora-bura qaçır, yer titrəyirdi. Döyüşçülər Şiruyəni dövrəyə alaraq onun ata çıxmasına kömək etdilər və onu saraya apardılar. Şiruyəni taxta əyləşdirərək ona sədaqət andı içdilər, ona ehtiram göstərdilər..." (6, s.716).

Bizim mənbədə Əbərvizin öldürülməsi də öz əksini tapmışdır: "Əbərvizi hər yerdə axtardılar... Günorta çağı Əbərviz acaraq kəmərinin bir ucundan qiymətli daşlardan birini çıxardı, xidmətçisinə "onları bir nəfərə verməyi və onun əli ilə ərzaq almağı" tapşırdı. Xidmətçi qiymətli daşı bağ gözətçilərindən birinə verdi. O isə həmin daşı bazara apardı və lazımı adama göstərdi" (6, s.716).

Əs-Sə`əlibi hadisələrin sonrakı gedişini bu cür təsvir etmişdir: "Xidmətçini dərhal tanıdılar, onun şahənşaha məxsus olduğunu bildilər və həmin adamı həbs etdilər. Bu adam saraya aparılaraq Fərruxzad tərəfindən dindirildi və xidmətçi hər şeyi açıb dedi. Fərruxzad onu Şiruyənın yanına apardı, baş verənləri ona söylədi. Şiruyə ona əmr etdi ki, qoşun bölüyünü Əbərvizin gizləndiyi yerə aparsın, onu həbs etsinlər. Qoşun bölüyü həmin adamın ardınca Əbərvizin olduğu yerə getdi. Əbərviz həmin dəstəni qarşısında görən kimi qılıncı əlinə alaraq əsgərlərə hücum etdi. Onlar qaçıb Şiruyənın yanına gəldilər... Fərruxzad bir bölük əsgərlə yenidən yola düşdü. Bağın dörd tərəfinə gözətçilər qoydu, Əbərvizin yanına gələrək ona təzim etdi və dedi: "Sən niyə burada qalmaq istəyirsən? Biz səni devirmişik və yerinə oğlunu seçmişik. Sən tək müqavimət göstərə bilməzsən. Hamı bir tərəfdə, sən isə təksən!" Əbərviz bu sözlərə etiraz etmədi. Onu ağ filə mindirib mühafizə altında Mədain sarayına apardılar. Əbərvizi məbəddə, bağlı qapı arxasında saxlayaraq yüksək rütbəli zabitlərdən birini buraya gözətçi qoydular. Bu hadisə Əbərvizin hakimiyyətinin otuz səkkizinci ilində baş verdi" (6, s.717-718).

Əbu Mənsur əs-Sə`əlibinin məlumatının davamı da maraqlıdır: "Şiruyə göstəriş verdi ki, Əbərvizi İstəxr qalasında saxlasınlar, ona lütfkarlıq göstərsinlər, ölənə qədər onun üçün rahat həyat şəraiti yaradılsın. Lakin sərkərdələr və əyanlar onun yenidən hakimiyyətə gələ biləcəyindən qorxub bir ağızdan Şiruyəyə bildirdilər: "Qılıncın iki qını olmaz. İranşəhrə və bizə iki şahənşah lazım deyil. Biz istəyirik ki, sən ya Əbərvizin öldürülməsini əmr edəsən, ya da özün hakimiyyətdən gedəsən"... Onlardan qorxan Şiruyə razılaşdı, onlara Əbərvizi öldürmək üçün münasib adam tapmağı əmr etdi... Uzun müddət bu cinayəti törətmək üçün bir nəfər axtardılar. Nəhayət, çox eybəcər, bolluqdan sonra ehtiyac içində yaşayan bir nəfərin namizədliyi üzərində dayandılar. Şiruyə bu qətli yerinə yetirməyi ona əmr etdi. O isə Əbərvizin yanına yollandı, qəflətən onun otağına girdi... Həmin bədheybət bundan sonra bir qılınc zərbəsi ilə Əbərvizin işini bitirdi. Əbərviz canını tapşırdı və heç bir zaman canlı olmayıbmış kimi düşüb qaldı" (6, s.723-726).

Əbu Mənsur əs-Sə`əlibi əsərdə Şiruyənin qısa zaman ərzində hakimiyyətdə qaldığını, onun hakimiyyəti zamanında dövlətdə hərc-mərciliyin hökm sürdüyünü, onun çox iradəsiz adam və qadın düşkünü olduğunu və taun xəstəliyindən öldüyünü qeyd etmişdir: "Şiruyə atasının ölümündən sonra başqasının xəzinəsinə girmiş oğruya bənzəyirdi. O, böyükdən kiçiyə qədər bütün qardaşlarını öldürdü. Onun hakimiyyəti nizamsız idi. Əyalət hakimləri onunla hesablaşmır, ona lazımi ehtiram göstərmirdilər. Şiruyə vaxtının çoxunu qadınlara həsr edirdi. O, şəhvətinin, ehtirasının qulu idi. Şiruyə bütün cəhdlərlə Şirini ələ almağa çalışırdı. O, Şirindən onun xanımı olmasını xahiş etdi və ona çoxlu vədlər verdi. Şirin onun təklifini qəbul etdi və iki şərt irəli sürdü: onun və uşaqlarının sərvətini özlərinə qaytarmaq; evlənməzdən öncə Əbərvizin məzarını ziyarət etmək. Şiruyə onun hər iki şərtini, arzusunu qəbul etdi... Şirin öz qullarını azad etdi, sərvətinin bir hissəsini elm xadimlərinə və dindarlara payladı. Sonra isə o, qüsl etdi və paltarlarını dəyişdi, öldürücü zəhər olan üzüyü barmağına taxdı. Şirin Əbərvizin hücrəsinə girən kimi yanağını meyitin yanağına toxundurdu, dişi ilə zəhəri çeynədi, Əbərvizi qolları arasına alaraq canını tapşırdı. Şiruyə Şirinin ölümünü eşidib çox kədərləndi və göstəriş verdi ki, onu Əbərvizin yanında dəfn etsinlər" (6, s.728-729).

Əbu Mənsur əs-Sə`əlibinin əsərində Şiruyənin aqibəti belə təsvir olunur: "Belə məlumat vardır ki, Əbərviz dərin düşünən gələcəyi görən insan idi. O, hiylə işlətməklə onu öldürmək istəyən adamı

öldürə bilmişdi. Möhürünün altında gizlətdiyi, çox təsirli zəhərdən hazırlanmış, qapalı, kiçik şüşə qab onun istifadə etdiyi vasitə idi. Əbərviz bu qabın üstünə bu sözləri yazmışdı: "Bu, bir əliksirdir ki, sevənlərin arzularını gerçəkləşdirir". Şiruyə bir gün təsadüfən xüsusi zinət əşyalarının arasında bu qabı gördü, onu möhürdən ayırdı, ağzını açdı, içindəkini ağzına boşaltdı və tezliklə dünyasını dəyişdi. Digər bir məlumatda isə onun bir il ərzində ölkədə tüğyan edən taun xəstəliyinin qurbanı olduğu söylənilir. Bu məlumatlar çox maraqlıdır. Şiruyə öz atasını öldürdü, ondan altı ay çox yaşadı" (6, s.730).

Moisey Kalankaytuklunun əsərində də II Xosrov Pərvizin taxtdan salınaraq öldürülməsi, Şiruyənin (II Qubadın) taxta çıxması eyni şəkildə təsvir olunmuşdur (3, s.95-100).

Əbu Mənsur əs-Sə`əlibi Şirin və Xosrov Pərviz arasında olan münasibətlər haqqında da məlumat vermişdir. Öncə qeyd edək ki, "Xosrov və Şirin" Yaxın Şərqdə geniş yayılmış əfsanədir. Həmin əfsanə Sasani şahənşahı II Xosrov və xristian (alban) şahzadəsi Şirin arasında yaşanmış eşq macərasına əsaslanır. Bədii ədəbiyyatda bu əfsanəni ilk dəfə Əbülqasim Firdovsi əks etdirmişdir. O, məşhur "Şahnamə" poemasında "Xosrov və Şirin" tarixçəsinə də toxunmuşdur. Lakin, Əbülqasim Firdovsi bu hadisələrə tarixi baxımdan yanaşmış, məhəbbət məsələlərinə xüsusi diqqət yetirməmişdir. 1180-ci ildə Azərbaycan şairi Nizami Gəncəvi (1141-1209) bu mövzuya müraciət edərək Eldənizlər dövlətinin ikinci hökmdarı Atabəy Məhəmməd Cahan Pəhləvanın (1175-1186) sifarişi ilə ilk dəfə olaraq "Xosrov və Şirin" əfsanəsi əsasında, məsnəvi şəklində poema yazmışdır (2). Nizami Gəncəvidən sonra "Xosrov və Şirin" Şərq ədəbiyyatında ən məşhur mövzulardan birinə çevrilmiş, böyük Azərbaycan şairinin "Xosrov və Şirin" əsərinin təsiri ilə məsnəvi şəklində onlarla poema yazılmışdır. Bəzi mənbələrdə verilən məlumatlara görə, VII əsrdə antik və erkən orta əsr Albaniyasının siyasi müstəqilliyinin qazanılmasında Şirinin xüsusi rolu olmuşdur.

602-ci ildə Bizansda Foka (602-610) imperator taxtını ələ keçirdi. O, bu əməli ilə taxtdan salınmış və öldürülmüş Mavrikinin (582-602) qisasını aldığını bildirdi. II Xosrov Pərviz qərb qonşusu ilə müharibəyə başladı, Kiçik Asiyada və Misirdə bəzi əraziləri işğal etdi. Buvəziyyətdən istifadə etmiş Alban katolikosu Viro (582-630) özünə tabe olanları Sasani şahənşahına qarşı itaətsizliyə səslədi və onlara qarşı yeni üsyana başçılıq etdi. Lakin albanlar məğlub oldular və katolikos Viroya Sasanilərin paytaxtı Ktesifonda qalmaq tapşırıldı. O, şahənşahın xristian (alban) həyat yoldaşı Şirinin himayəsi sayəsində Alban kilsəsinə buradan başçılıq etdi. Katolikos Viro II Xosrova təsir edərək Mehranilərə "Girdıman və Alban ölkəsinin hakimləri" titulunun verilməsinə nail oldu (1, s.151-152).

Alban salnaməçisi Mousey Kalankaytuklu bu barədə yazmışdır: "Bütün canilər, dustaqlar və böyük sarayın zindanlarında olan adamlar şah Qubad tərəfindən əfv edilərək öz vətəninə qayıtdı. Bunların arasında böyük Albaniya knyazlığının "Viro" adlı katolikosu da var idi... O, fars dilindən tərcümə işində xüsusilə mahir idi. Çünki bu dili Xosrovun saray zindanında şaha qarşı üsyan etmiş Albaniyanın böyük knyazları ilə birlikdə iyirmi beş il həbsdə olarkən mükəmməl öyrənmişdi. Bu knyazların çoxu sonralar həlak oldu, bəzilərinin boynunu vurdular... Lakin Vironun bəxti gətirdi; o, şahın sarayına yol açdı və Müqəddəs Xaçın bərəkəti onu şah Xanımının – Şirinin aramgahına gətirdi. Şirinin səyləri nəticəsində Şah Vironun həyatını ona bağışladı" (3, s.102).

Əbu Mənsur əs-Sə`əlibidə Şirinlə bağlı olaraq yazmışdır: "Şirin qeyri-adi dərəcədə gözəl, bütün gözəlliklərlə yaradılmış bir qadın idi. Onun gözəlliyi və mükəmməlliyi bu gün də nümunə kimi göstərilir. Əbərviz yeniyetmə olarkən onun vurğunu idi və gizlicə onun lütfünü qazanmışdı. Bir azdan onun başı Bəhram Çubinin qiyamına və yuxarıda qeyd olunan digər hadisələrə qarışdı. O, Şirinə məhəl qoymadı və tezliklə onu tamam unutdu, şahənşah olandan sonra isə heç saymadı. Şirin bu şəkildə atıldığından çox təəccübləndi... Şirin Əbərvizin ova çıxacağı günü gözlədi və bütün gözəlliyini daş-qaşlarla və digər zinət bəzəkləri ilə daha da gücləndirərək gözəllik ilahəsi kimi onun yolunun üstündə durub gözlədi" (6, s.691).

Əsər müəllifi fikrini bu cür davam etdirmişdir: "Əbərviz onu görən kimi yatmış məhəbbəti yenidən oyandı və ona bəslədiyi gizli ehtirası qəflətən parladı. O, Şirini etibarlı zabitlərindən birinə tapşırıb ovuna davam etdi, geri qayıdan kimi Şirinlə evləndi... Yüksək mənsəb sahibləri Əbərvizi bu izdivacı, aşağı təbəqədən olan birisi ilə evləndiyinə görə qınayır, bunu "böyük səhv" hesab edirdilər...

Buna baxmayaraq, Şirin Əbərvizin məhəbbətini və lütfünü qazanmaqda davam etdi və onun qəlbini elə aldı ki, Əbərviz onu Bizans imperatorunun qızı Mariyanın ölümündən sonra "birinci xanımı" kimi qəbul etdi" (6, s.692-694).

VI-VII əsrlərdə Cənubi-Qərbi Asiyada özünəməxsus hadisələr baş verdi. Həmin hadisələr ərəblərin siyasi səhnəyə çıxması, yeni dinin – İslamın yaranması və yayılması, yeni dövlətin – Ərəb dövlətinin meydana gəlməsi və güclənməsi ilə bağlı idi.

## ƏDƏBİYYAT:

1. Azərbaycan tarixi. 7 cilddə. II cild (III-XIII əsrin I rübü), Bakı: Elm, 2007, 608 s.
2. Gəncəvi Nizami. Seçilmiş əsərləri. İsgəndərnamə. Xosrov və Şirin. Bakı: "Lider" Nəşriyyatı, 2004, 510 s.
3. Kalankatlı Moisey. Albaniya tarixi /Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bunyadovundur. Bakı: 1993, 235 s.
4. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar / Məsul redaktor: F.Əsədov. Bakı: Nurlan, 2005, 242 s.
5. Бойс М. Зороастрийцы. Верования и обычаи. Пер.с англ. И.М.Стеблина-Каменского.Под ред. и с послесл. Э.А. Грантовского. Москва: Наука, 1987, 316 с.
6. Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour ʻAbd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Imprimerie nationale, Paris: 1900, p. 816.

## РЕЗЮМЕ

***Айтадж ШИРАЛИЕВА***

***Внешнеполитические отношения Азербайджана в III-VII веках***

***Ключевые слова:*** *источник, Бахрам Чубин, Хосров Парвиз, ас-Саалиби, сасанидский период*

В III-VII веках Азербайджан стал центром военно-политических конфликтов между тремя империями (Византией, Сасанидами и Хазарским хаганатом) Восточной Азии, имевшими интересы на Кавказе. Эти страны вели длительную борьбу за этот регион. Они стремились завладеть этим регионом, держать его под контролем, использовать военно-политический, экономический и торговый потенциал Южного Кавказа в своих политических и стратегических интересах. Поэтому взаимоотношения этих государств носили скорее военно-политический характер. В этих отношениях очень сложно найти факты экономической, торговой и культурной связи.

Завоевание Атропатены и попадание Албании в вассальную зависимость лишили страну прямых внешнеполитических связей. В III-VII веках внешнеполитические связи Азербайджана существовали в рамках отношений Сасанидского государства с соседними государствами.

.

## ABSTRACT

***Aytaj SHIRALIYEVA***

***Foreign Political Relations of Azerbaijan in the III-VII Centuries***

***Keywords:*** *source, Bahram Chubin, Khosrow Parviz, as-Saalibi, Sasanian period*

In the III–VII centuries, Azerbaijan became the center of military-political conflicts between the three empires (Byzantium, the Sassanids, and the Khazar Khaganate) of East Asia, which had interests in the Caucasus. These countries waged a long struggle for this region. They sought to seize this region, keep it under control, and use the military-political, economic, and trade potential of the South Caucasus in their political and strategic interests. Therefore, the relationship between these states was more of a military-political nature. In these relations, it is very difficult to find facts about economic, trade, and cultural connections.

The conquest of Atropatena and Albania's fall into vassalage deprived the country of direct foreign policy ties. In the III–VII centuries, Azerbaijan's foreign policy relations existed within the framework of relations between the Sasanian state and neighboring states.